# AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN
# İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

AZ1122 Bakı şəhəri,
H.Zərdabi küç, 96

Tel: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçt: office@isim.az http://www.isim.az


"____"__________2015-ci il №__________

## ƏMR № 130

**Bakı şəhəri** **21 may 2015-ci il**

**"Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının icrası məqsədi ilə görüş və mühazirələr keçirilməsi barədə"**

Azərbaycan Respublikası Prezidentinin 7 iyul 2011-ci il tarixli 1621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının aidiyyəti bəndlərinin icrasının təmin edilməsi məqsədi ilə

## ƏMR EDİRƏM:

1. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planının 6.6.1-ci bəndinin 2-ci hissəsinə, 6.6.3-cü bəndinin 2-ci hissəsinə və 6.6.5-ci bəndinin 2-ci hissəsinə uyğun olaraq İSİM, Gəncə şəhər İcra Hakimiyyəti və "Odlar Yurdu" İctimai Birliyi ilə birgə 25-30 may 2015-ci il tarixlərdə "Sağlam beş (5) gün" şüarı altında Gəncə şəhərində aşağıdakı tədbirlər həyata keçirilsin:

1.1. Gənclər arasında zərərli vərdişlərin profilaktikası ilə bağlı Gəncə şəhərindəki 3 ali təhsil müəssisəsində tələbə heyəti ilə mütəxəssislərin görüşləri və mühazirələr təşkil edilsin;

1.2. Gənclər üçün sağlam həyat tərzi və reproduktiv sağlamlığa dair gənclər və yeniyetmələr arasında zərərli vərdişlərin profilaktikası ilə bağlı Gəncə şəhərindəki 3 ali təhsil müəssisəsində tələbə heyəti ilə mütəxəssislərin görüşləri və mühazirələr təşkil edilsin;

1.3. Erkən nikahların qarşısının alınması məqsədi ilə Gəncə şəhərindəki 3 ali təhsil müəssisəsində tələbə heyəti ilə mütəxəssislərin görüşləri və mühazirələr təşkil edilsin;

1.4. Əmrin bu bəndində qeyd edilmiş mövzularda həmin təhsil müəssisələrində və "Odlar Yurdu" İB-nin Gəncə şəhərindəki ofisində treninqlər və şəhər ictimaiyyəti üçün məlumat xarakterli aksiyalar keçirilsin.

2. Əmrin 1-ci bəndində qeyd olunan görüş və mühazirələrin təşkili və keçirilməsi üçün iş planları təsdiq edilsin (Əlavə).

3. Baş mühasib Abuzər Məmmədova tapşırılsın ki, Əmrin 1-ci bəndində qeyd olunan görüş və mühazirələrin təşkili və keçirilməsi üçün iş planlarına uyğun xərclərin smetaları tərtib edilsin və həmin smetalar üzrə vəsaitin İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsi təmin edilsin.

4. Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadəyə tapşırılsın ki, təşkili və keçirilməsinə nəzarət edilməklə Əmrin 1-ci bəndində qeyd olunan görüş və mühazirələr barədə məlumat verilsin:

5. Əmrin icrasına nəzarət direktorun birinci müavini Rauf Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**

**İctimai Səhiyyə və İslahatlar**
**Mərkəzinin direktoru**
**Ceyhun Məmmədova**

## MƏLUMAT

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 26.01.2012-ci il tarixli 06 №-li əmri ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 6.6.1.4 "Piylənmə, qeyri-sağlam qidalanma və fiziki passivlik, infeksion və qeyri-infeksion xəstəliklərin profilaktikasına dair radio və televiziya kanallarında mütəxəssislərin çıxışlarının təşkilinin təkmilləşdirilməsi, 6.6.5. Erkən nikahların qarşısını almaq üçün təhsil müəssisələrində gənclər və yeniyetmələr üçün mühazirələrin təşkili, 6.6.3. Sağlam həyat tərzi və reproduktiv sağlamlıq sahəsində maarifləndirmə işinin genişləndirilməsi, təhsil müəssisələrində gənclər və yeniyetmələr üçün sağlam həyat tərzi və reproduktiv sağlamlığa dair mühazirələrin təşkili, "2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı"nın icrası üçün Səhiyyə Nazirliyinin Tədbirlər Planının 1.1 İdarə və təşkilatlarda donorluq aksiyalarının təşkil edilməsi məqsədilə tədbirlərin keçirilməsi" bəndlərinin icrası İctimai Səhiyyə və İslahatlar Mərkəzinə (İSİM) həvalə olunub.

Bu bəndlərin icrasını təmin etmək məqsədi ilə İSİM, Gəncə şəhər İcra Hakimiyyəti və "Odlar Yurdu" İctimai Birliyi ilə birgə 25-30 may 2015–ci il tarixlərdə "Sağlam beş (5) gün" şüarı altında Gəncə şəhərində üç Ali təhsil müəssisələrində və "Odlar Yurdu" İB-nin ofisində yuxarıda qeyd etdiyimiz mövzularda treninqlərin və iki gün ərzində şəhər ictimaiyyəti arasında məlumat xarakterli aksiyaların keçirilməsi nəzərdə tutulur.

Tədbirlərin keçirilməsi ilə bağlı iştirakçılar və xidmətlər barədə cədvəl əlavə edilir ( 2 vərəq).

Layihələrin əlaqələndirilməsi
şöbəsinin müdiri

Səbinə Babazadə

21.05.2015.

| Tədbirin keçiriləcəyi tarix və yer | Təşkilatçılar | İştirakçılar | Tədbirin təsviri | Tərtib və çap ediləcək materiallar |
|---|---|---|---|---|
| 04-08 may Gəncə şəhərində.<br><br>Gəncə Dövlət Universitetinin akt zalında<br><br>Azərbaycan Aqroekologiya İnstitutunun akt zallarında<br><br>Azərbaycan Dövlət Texnologiya Universitetinin akt zallarında<br><br>"Odlar Yurdu" İB ofisi<br><br>İctimai yerlərdə aksiya | Gəncə şəhər İcra Hakimiyyəti, Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM), "Odlar Yurdu" İctimai Birliyi | Universitet tələbələri və şəhər ictimaiyyəti arasında məlumat xarakterli aksiyalarda iştirak edənlər | • Təqdimatla çıxışlar<br>• Məlumat xarakterli materialların tələbələrə paylanması<br>• Mövzu ətrafında müzakirələr<br>• Videoçarxların nümayişi<br>• Fotoçəkiliş | • **Banner** -1 ədəd 200 * 85 sm |

**Cədvəl**

| | |
|---|---|
| təşkilatçı | Səbinə Babazadə |
| Mütəxəssislər | Cəmilə Kərimova<br>Elnarə Nuriyeva<br>Afət Məmmədova |
| administrativ xərclər | |
| nəqliyyat xərcləri | |
| fotoxidmət | 1 nəfər |
| Aksiyalarda istifadə olunacaq çap materialları: | |

| | |
|---|---|
| buklet - Kim qan donoru ola bilər? | 1500 ədəd |
| buklet— Qan damlasının bir insandan başqasına "SƏYAHƏTİ" | 1500 ədəd |
| kitabça — Bədən çəkisi və ürək-damar xəstəlikləri riski | 1500 ədəd |
| vərəqə — Sağlam qidalanmanın xüsusiyyətləri | 1500 ədəd |
| kitabça — Reproduktiv sağlamlıq haqqında nələri bilməliyik? | 1500 ədəd |
| vərəqə — Hiperlipidemiyanın idarə olunmasına dair tövsiyələr | 1500 ədəd |
| buklet - Fəal ol, sağlam ol, həyat boyu qalib ol (yaşıl üzlü) | 1500 ədəd |
| buklet - Gənclər evlənmədən öncə talassemiya barədə bunları bilin! | 1500 ədəd |
| vərəqə- "Gələcək analar və atalar! Talassemiya haqqında bunları bilmək vacibdir!" | 1500 ədəd |
| vərəqə - "Gənclər! Evlənmədən öncə talassemiya barədə bunları bilin!" | 1500 ədəd |
| kitabça – Bədən çəkisi və ürək-damar xəstəlikləri riski | 1500 ədəd |